Azərbaycan Respublikasının Maliyyə Nazirinin "27"iyun 2005-ci il tarixli I-79 nömrəli əmri ilə təsdiq edilmişdir.

# Milli Mühasibat Uçotu Standartlarının hazırlanması və qəbul edilməsi Qaydaları

## *1.Ümumi müddəalar*

1.1. Bu Qaydalar "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununa, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanına və qüvvədə olan digər normativ hüquqi aktlara uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar Kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları, Büdcə təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları və Qeyri-hökumət Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarının (bundan sonra MMUS adlandırılacaqdır) hazırlanması və qəbul edilməsi prosedurunu müəyyən edir.

1.3. Bu Qaydalar Kommersiya təşkilatları üçün MMUS-un, Büdcə təşkilatları üçün MMUS-un və Qeyri-hökumət Təşkilatları üçün MMUS-un işlənib hazırlanması prosesində Maliyyə Nazirliyinin, Mühasibat Uçotu üzrə Məsləhət Şurasının və digər maraqlı tərəflərin qarşılıqlı əməkdaşlığını (əlaqəsini) təmin edir.

## *2.Standartların hazırlanması*

2.1. Maliyyə Nazirliyi MMUS-un hazırlanmasına tövsiyyənin verilməsi üçün Mühasibat Uçotu üzrə Məsləhət Şurasına (bundan sonra MUMŞ adlandırılacaqdır) bu Standartın müəyyən olunmuş müddətlərdə mərhələlərlə işlənib hazırlanması üzrə İş Planını təqdim edir.

2.2. MUMŞ Maliyyə Nazirliyinə müəyyən olunmuş müddətlərdə mərhələlərlə MMUS-un işlənib hazırlanması üzrə İş Planına uyğun olaraq ayrı-ayrı MMUS üçün tövsiyyənin verilməsini təmin edir.

2.3. Maliyyə Nazirliyi MUMŞ-ın tövsiyyəsi ilə yeni MMUS-un ilkin layihəsini hazırlayır.

2.4. Kommersiya təşkilatları üçün MMUS-un layihələri Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ilə, Büdcə təşkilatları üçün MMUS-un layihələri isə İctimai sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları ilə nizamlanan bütün mərhələləri əhatə etməklə hazırlanır.

2.5. Qeyri-hökumət Təşkilatları üçün MMUS-un ilkin layihələri İctimai sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarını tənzimləyən əsas prinsipinlər nəzərə alınmaqla hazırlanır.

2.6. Maliyyə Nazirliyi hazırlanmış MMUS-un ilkin ilkin layihəsinin dərc olunmasını və bütün maraqlı tərəflərdən 60 gün ərzində həmin layihəyə dair rəylərin alınmasını aşağıdakı qaydada təşkil edir.

2.6.1. MMUS-un ilkin layihəsini rəy alınması üçün MUMŞ-a təqdim edir və digər maraqlı tərəflərin nəzərinə çatdırmaq üçün dərc edir.

2.6.2. İlkin layihənin dərc olunmasından keçən 60 gün ərzində bütün maraqlı tərəflərdən layihəyə dair rəylərin müəyyən olunmuş qaydada alınmasını təmin edir.

2.7. 60 gün bitdikdən sonra Maliyyə Nazirliyi bütün rəyləri MUMŞ-a təqdim edir.

2.8. Maliyyə Nazirliyi rəyləri təqdim etdikdən sonra 30 gün ərzində MUMŞ ilkin layihəni və göstərilən rəyləri nəzərdən keçirir və Maliyyə Nazirliyinə müzakirə edilən məsələ ildə bağlı öz rəsmi rəyini təqdim edir. MUMŞ rəsmi rəyində şura üzvlərinin müzakirə zamanı bildirdiyi bütün alternativ fikirlər də öz əksini tapmalıdır.

2.9. Maliyyə Nazirliyi MUMŞ-un rəsmi rəyi və maraqlı tərəflərin rəyi nəzərə alınmaqla İlkin layihəyə yenidən baxır.

2.10. Maliyyə Nazirliyi Milli Mühasibat Uçotu Standartının ilkin layihəsinə düzəlişlər edə, onu yenidən hazırlaya ya ilkin layihəni olduğu kimi saxlaya bilər.

2.11. Mövcud olan MMUS-a düzəlişin ilkin layihəsinin hazırlanması və dərc olunması qaydası bu Qaydaların 2.1.-.2.10.-cu bəndlərinə müvafiq olaraq həyata keçirilir.

## *3.Standartların qəbul edilməsi*

3.1. Milli Mühasibat Uçotu Standartlarının qəbul edilməsi Maliyyə Nazirliyi tərəfindən həyata keçirilir.

3.2. Maliyyə Nazirliyi bu Qaydaların 2.6.-ci bəndində qeyd edilən rəylərin nəzərdən keçirilməsi nəticəsində təklif edilən ilkin layihənin qəbul edilməsi barədə qərar verir. Maliyyə Nazirliyi yeni MMUS-u və ya mövcud olan MMUS-a düzəlişi ilkin layihədə dərc edildiyi kimi təsdiq etdikdə, həmin Standartların və ya ona düzəlişin qüvvəyə minməsi tarixini müəyyən edir.

3.3. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının hər hansı birini bütövlükdə və ya onun hər hansı müddəasını Kommersiya Təşkilatları üçün MMUS-a daxil etməmək və ya daxil etməzdən əvvəl dəyişiklik etmək zəruriyyəti yarandıqda, Maliyyə Nazirliyi Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının ilkin formasının tətbiq

PDF created with pdfFactory trial version www.pdffactory.com

edilməməsinin səbəbi və Kommersiya Təşkilatları üçün MMUS ilə Maliyyə Hesabatlarının Beynəlxalq Standartları arasında mövcud olan hər hansı digər fərq müvafiq MMUS-un əlavəsində açıqlanmalıdır.

3.4. İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarının hər hansı birini bütövlükdə və ya onun hər hansı müddəasını Büdcə Təşkilatları üçün MMUS-a daxil etməmək və ya daxil etməzdən əvvəl dəyişiklik etmək zəruriyyəti yarandıqda, Maliyyə Nazirliyi İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarının ilkin formasının tətbiq edilməməsinin səbəbi və Büdcə Təşkilatları üçün MMUS ilə İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları arasında mövcud olan hər hansı digər fərq müvafiq MMUS-un əlavəsində açıqlanmalıdır.

3.5. Maliyyə Nazirliyi ilkin layihəyə dəyişikliklər etmək qərarına gəldikdə, yeni MMUS-un və ya mövcud olan MMUS-a düzəlişin dəyişdirilmiş layihəsini hazırlayır və təsdiq edir, həmin standartların və ya düzəlişin qüvvəyə minməsi tarixini müəyyən edir.

3.6. Təklif edilən ilkin layihənin düzəlişlə birlikdə və ya düzəlişsiz təsdiq edilməsi zamanı Maliyyə Nazirliyi həmin ilkin layihənin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğunluğunu və Mühasibat Uçotu üzrə Məsləhət Şurasının tövsiyyəsini nəzərə alır. Qəbul edilən Milli Mühasibat Uçotu Standartları və ya Milli Mühasibat Uçotu Standartlarına düzəliş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarından, İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarından və ya Mühasibat Uçotu üzrə Məsləhət Şurasının tövsiyyəsindən fərqli olduqda, Maliyyə Nazirliyi MMUS və ya MMUS-a düzəlişin qəbul edilməsinə dair qərarın əlavəsində bu fərqləri göstərməli və onun səbəblərini açıqlamalıdır.

## *4.Məsuliyyət*

4.1. Bu Qaydaların tələblərini pozanlar Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

PDF created with pdfFactory trial version www.pdffactory.com